**Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 939 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 939 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi"ni "Elm haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 939 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 804; 2016, № 11, maddə 1803; Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 may tarixli 1385 nömrəli və 16 may tarixli 1398 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1-ci və 7.3-cü bəndlərə və 3.1.8-ci yarımbəndə "fundamental" sözündən sonra ", nəzəri-metodoloji, pedaqoji-metodiki" sözləri əlavə edilsin.

2. 3.2.13-cü yarımbənddə "Azərbaycan Respublikasının Qanununa" sözləri "və "Elm haqqında" Azərbaycan Respublikasının qanunlarına" sözləri ilə əvəz edilsin.

3. 6.1-ci bəndə "mütəxəssis" sözündən sonra ", elmi" sözü əlavə edilsin.

4. 6.16-cı bənddə "formada dövlət nümunəli sənəd" sözləri "formalı dövlət sənədi" sözləri ilə əvəz edilsin.

5. 7.5.1-ci yarımbənddə "və tətbiqi-nəzəri" sözləri ", nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi" sözləri ilə əvəz edilsin.

6. 8.10-cu bənddən "və elmi-pedaqoji" sözləri çıxarılsın.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 21 iyul 2017-ci il.**